# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## 2025-ci ilin aprel ayı üzrə auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkliflərin təqdim edilməsi barədə

## A R A Y I Ş


***İcraçılar:***

*Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi* — *Vasif Cavadov*

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi* — *Rövşən Cəfərli*

*Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri* — *Zaur Almazov*

*Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən* — *Barat Orucov*



**BAKI - 2025**

**2025-ci ilin aprel ayı üzrə auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkiflərin təqdim edilməsi barədə**

**A R A Y I Ş**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)" 5.6-cı "Auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə", 5.8-ci "Auditor xidməti bazarının təşkili və tənzimlənməsi" bölmələrinin, habelə Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.1-ci "Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkiflərin təqdim edilməsi" bəndinin icrasını təmin etmək məqsədilə işçi qrupu tərəfindən 2025-ci ilin aprel ayı üzrə auditorların auditor xidməti göstərilməsinə dair bağladıqları müqavilələrin gündəlik təhlili aparılmış və həmin müqavilələrdə Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər"inə əməl olunmama və haqsız rəqabət hallarının monitorinqi həyata keçirilmişdir.

2025-ci ilin aprel ayı ərzində 154 auditor təşkilatı və 41 sərbəst auditor tərəfindən "Auditorun şəxsi kabineti" sisteminə auditor xidməti göstərilməsi barədə 915 müqavilə daxil edilmişdir. Bağlanılmış müqavilələrdən 5 müqavilə "icra olunub", 498 müqavilə "rəy verilib" və 412 müqavilə "icradadır" statusu ilə qeydə alınmışdır.

Şəxsi kabinet sisteminə daxil edilmiş 915 müqavilədən 829-u və ya 90,6%-i MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə hesabatlarının auditi), 10-u və ya 1,1%-i NKA (Nizamnamə kapitalının formalaşdırılmasının auditi), 3-ü və ya 0,3%-i VHA (Maliyyə-təsərrüfat əməliyyatlarının vergi qanunvericiliyinə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin vergi hesabatlarının auditi), 4-ü və ya 0,4%-i ƏQA (Əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi), 21-i və ya 2,3%-i MX (Mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətinin göstərilməsi), 3-ü və ya 0,3%-i SDOSA (Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan audit) və 45-i və ya 4,9%-i DX (Digər auditor (əlaqəli xidmətləri) üzrə müqavilələr olmuşdur ***(Diaqram 1).***

***Bağlanmış müqavilələrin auditor xidmətləri üzrə növləri***




**Diaqram 1**

“Auditorun şəxsi kabineti” sistemində Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”inin müvafiq meyarları üzrə (MHA – 829, VHA – 3, ƏQA – 4, NKA – 10) 7 031 069.00 manat dəyərində 846 müqavilənin qeydiyyatı aparılmışdır. Göstərilən meyarlar üzrə orta müqavilə məbləği 8310,9 manat olmuşdur.

“Auditorun şəxsi kabineti” sisteminə daxil edilmiş 829 MHA (Maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə hesabatlarının auditi) üzrə müqavilələrdən 490-ı məcburi auditin subyekti, 339 müqavilə isə könüllü auditin subyekti olmuşdur. Bu da uyğun olaraq 59,1% və 40,9% təşkil etmişdir ***(Diaqram 2).***

***Bağlanmış və icra olunmuş müqavilələrin məcburi və könüllü audit subyektləri üzrə müqayisəsi***




**Diaqram 2**

Araşdırma zamanı 2025-ci ilin aprel ayı ərzində adları aşağıda qeyd olunan 16 auditor təşkilatı və 4 sərbəst auditor tərəfindən bağlanılmış 21 müqavilənin Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndən yüksək olduğu müəyyən edilmişdir:

2025-ci ilin aprel ayı üzrə aparılmış monitorinq zamanı Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər"inə 5 auditor təşkilatı və 2 sərbəst auditor tərəfindən "Auditorun şəxsi kabineti" sistemində qeydiyyata alınmış 8 müqaviləyə əsasən əməl edilmədiyi müəyyən edilmişdir.

O cümlədən:

***Auditor təşkilatları***

1. "A Audit and Consulting" MMC (Əliyev Rüfət Yaqub oğlu) tərəfindən bağlanılan 1 müqavilə;
2. "Analitik-Audit Konsaltinq" MMC (Qurbanov Abbasəli Şükür oğlu) tərəfindən bağlanılan və rəy verilən 1 müqavilə;
3. "Azfin Audit" MMC (Binyətov İbadət Ədalət oğlu) tərəfindən bağlanılan və rəy verilən 1 müqavilə;

4. “Baltik Kaspian Audit” MMC (Əsədullayev Samir Sədulla oğlu) tərəfindən bağlanılan 1 müqavilə;
5. “NR Proaudit” MMC (Rəhimov Nicat Nazim oğlu) tərəfindən bağlanılan 2 müqavilə.

***Sərbəst auditorlar***

1. Əkbərov Mübariz Əkbər oğlu tərəfindən bağlanılan və rəy verilən 1 müqavilə;
2. Zəkiyev Zəki Etibar oğlu tərəfindən bağlanılan və rəy verilən 1 müqavilə.

**Göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl etməyən auditor təşkilatları**

| Sıra №si | Auditor təşkilatının adı | Müqavilə məbləği (manatla) | Minimum hədd (manatla) | %-lə nisbəti |
|---|---|---|---|---|
| 1. | "A Audit and Consulting” MMC | 8000.0 | 13250.0 | 60.4% |
| 2. | “Analitik-Audit Konsaltinq” MMC | 8000.0 | 15500.0 | 51.6% |
| 3. | “Azfin Audit” MMC | 10000.0 | 15072.0 | 66.3% |
| 4. | “Baltik Kaspian Audit” MMC | 16700.0 | 20000.0 | 83.5% |
| 5. | “NR Proaudit” MMC | 5000.0<br>5000.0 | 7215.0<br>13912.0 | 69.3%<br>35.9% |

**Göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl etməyən sərbəst auditorlar**

| Sıra №si | Sərbəst auditorun adı | Müqavilə məbləği (manatla) | Minimum hədd (manatla) | %-lə nisbəti |
|---|---|---|---|---|
| 1. | Əkbərov Mübariz Əkbər oğlu | 3000.0 | 13335.0 | 22.5% |
| 2. | Zəkiyev Zəki Etibar oğlu | 6800.0 | 7863.0 | 86.5% |

Cədvəldə adları qeyd edilən auditor təşkilatlarına və sərbəst auditorlara “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”inə əməl etməmə səbəbləri göstərilməklə izahat təqdim etmələri ilə bağlı məktublar göndərilmiş və izahatları alınmışdır

"A Audit and Consulting” MMC-nin direktor-auditoru Rüfət Əliyev izahatında təsərrüfat subyekti "Rasmar" MMC ilə ötən dövrlə müqayisədə müqavilə məbləğinin dəyərini 100% artırdığını, növbəti illərdə müqavilə məbləğində artım olacağı barədə təsərrüfat subyektinin rəhbərliyi ilə razılıq əldə etdiklərini bildirmişdir.

“Analitik-Audit Konsaltinq” MMC-nin direktor-auditoru Abbasəli Qurbanov izahatında "ƏLİ-TEKSTİL" MMC ilə müqavilə qiyməti müəyyən edilən zaman sənəd dövriyyəsinin az olması nəzərə alınaraq müqavilə bağlandığını bildirmişdir.

“Azfin Audit” MMC-nin direktor-auditoru İbadət Binyətov izahatında təsərrüfat subyekti “NMP Construction” MMC ilə bağlanılan müqavilə dəyərinin minimum hədlərdən aşağı olmasının səbəbi kimi sahibkarlıq subyektinin ilk dəfə olaraq məcburi auditdən keçməsi ilə əlaqələndirmiş və növbəti illərdə müqavilə məbləğində artım olacağı barədə təsərrüfat subyektinin rəhbərliyi ilə razılıq əldə etdiklərini bildirmişdir.

“Baltik Kaspian Audit” MMC-nin direktor-auditoru Samir Əsədullayev izahatında "PAPREC ENERJİ AZƏRBAYCAN" MMC-nin auditinin daimi olaraq tərəflərindən aparıldığını, ötən dövrlərlə müqayisədə müqavilə məbləğində artımın olduğunu və bu artımın növbəti illərdə də davam etdiriləcəyini bildirmişdir.

“NR Proaudit” MMC-nin direktor-auditoru Nicat Rəhimov izahatında təsərrüfat subyektləri "Foodcity Agropark" MMC və "TERMOTEC" MMC ilə audit xidməti göstərilməsinə dair müqavilə məbləğində ötən dövrlərlə müqayisədə artımın olduğunu və bu artımın növbəti illərdə də davam etdiriləcəyini bildirmişdir.

Sərbəst auditor Mübariz Əkbərov izahatında "HB Co Ltd" MMC-nin daimi müştərisi olduğunu və növbəti illərdə müqavilə məbləğində artım olacağı barədə təsərrüfat subyektinin rəhbərliyi ilə razılıq əldə etdiklərini bildirmişdir.

Sərbəst auditor Zəki Zəkiyev izahatında təsərrüfat subyekti "QAFQAZ AUTO" MMC ilə audit xidməti göstərilməsi ilə bağlı müqaviləni minimum hədlərə yaxın məbləğdə bağladığını, növbəti dövrlərdə minimum hədlərin tələblərinə əməl edəcəyini bildirmişdir.

## Təkliflər

Aparılmış monitorinqin nəticəsi olaraq aşağıdakıları təklif edirik:

- Monitorinqin nəticəsi olaraq hazırlanmış arayışın Palatanın internet səhifəsində yerləşdirilməsini;

- Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndən yüksək məbləğə müqavilə bağlayan adları arayışda qeyd olunan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara təşəkkür məktubunun göndərilməsini;

- Auditor təşkilatları "A Audit and Consulting" MMC, "Analitik-Audit Konsaltinq" MMC, "Azfin Audit" MMC, "Baltik Kaspian Audit" MMC, "NR Proaudit" MMC, sərbəst auditorlar Əkbərov Mübariz Əkbər oğlu və Zəkiyev Zəki Etibar oğlu tərəfindən təqdim olunan izahatları və cari ildə ilk dəfə belə hala yol verdiklərini nəzərə alaraq, onlara şifahi xəbərdarlıq edilməklə gələcəkdə belə hallara yol verilməməsinin nəzərlərinə çatdırılmasını;

- Növbəti aylarda aparılacaq monitorinq zamanı adları yuxarıda qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən növbəti belə neqativ hallar aşkarlanarsa, onlar barəsində daha sərt intizam və tənbeh tədbirlərinin görülməsini.

**Auditin təşkli və hesabatlılıq**
**idarəsinin rəisi** **Vasif Cavadov**